AMINOL

# "FSC" SİYASƏTİ

Bu siyasət **"ALCO" MMC-nin** dayanıqlı meşə idarəçiliyi ilə bağlı qəbul etdiyi əsas prinsipləri və öhdəlikləri müəyyən edir.

Biz "FSC" standartlarının tələblərinə əsasən ekoloji cəhətdən uyğun, sosial cəhətdən faydalı və iqtisadi cəhətdən sərfəli meşə idarəçiliyi yanaşması tətbiq edirik. Məqsədimiz meşələri gələcək nəsillərə sağlam şəkildə ötürmək və meşə məhsullarının dayanıqlı mənbələrdən əldə olunmasını təmin etməkdir.

"ALCO" MMC "Forest Stewardship Council®" tərəfindən qəbuledilməz hesab olunan aşağıdakı fəaliyyətlərdə birbaşa və ya dolayı yolla **iştirak etməməyi** öz öhdəsinə götürür:

- Qanunsuz ağac kəsimi və ya qanunsuz meşə məhsulları ticarəti;
- Meşə təsərrüfatı işləri zamanı insan hüquqlarının pozulması;
- Yüksək qorunma dəyəri olan meşələrin məhv edilməsi;
- Təbii meşə sahələrinin plantasiyalara və ya qeyri-meşə torpaqlarına çevrilməsi;
- Tədqiqat işləri istisna olmaqla meşə təsərrüfatlarında genetik modifikasiya edilmiş orqanizmlərin istifadəsi;
- BƏT-in (Beynəlxalq Əmək Təşkilatı) İşdə Fundamental Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsinə əsasən qəbul olunmuş konvensiyaların hər hansı birinin pozulması.

Bu siyasət işçilərə, təchizatçılara, partnyorlara, podratçılara, sub-podratçılara və digər maraqlı tərəflərə təqdim ediləcəkdir. Bütün maraqlı tərəflərlə səmərəli əlaqələr qurulacaq, onların fikir və tövsiyələri nəzərə alınacaqdır.

"ALCO" MMC məhsullarının "FSC" standartlarına uyğunluğunu təmin etmək üçün təchizat zəncirini izləmə mexanizmi tətbiq edəcəkdir. "ALCO" MMC ilə işləyən hər bir təchizatçı və ya partnyor "FSC" tələblərinə uyğun şəkildə fəaliyyət göstərməlidir.

Bu siyasətin davamlı şəkildə tətbiq edilə bilməsi üçün ildə ən azı bir dəfə ona rəhbərlik tərəfindən yenidən baxılacaqdır.

**Baş direktor**
Dunay XASAYLI

**Tarix:**
01.07.2024

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT ALCO LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC